I BÖLMƏ.
MALİYYƏ, İNVESTİSİYA, İNNOVATİV İNKİŞAF

UOT 338.336

Elnurə Bünyat qızı MƏMMƏDOVA
iqtisad elmləri doktoru
Azərbaycan Kooperasiya Universiteti
E-mail: mammadova-e@list.ru
ORCID: https://orcid.org/0000-0003-2721-5733

Samirə Yaşar qızı MƏMMƏDOVA
i.f.d., dosent
Azərbaycan Kooperasiya Universiteti
E-mail: samira.mammadova64@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.003.01

NEFT STRATEGİYASININ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə edilməsinə dair müxtəlif təkliflər verməkdən, neft strategiyasının ölkənin investisiya mühiti göstəricilərinə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsirini təhlil etməkdən ibarətdir.

Tədqiqatın metodologiyasını – daxili və xarici iqtisadçıların neft və qaz maraqları ilə bağlı elmi məqalələr, bu sahədə neft ixrac edən ölkələrin təcrübələri, Azərbaycan iqtisadçı alimlərinin fikirləri və digərləri təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqat işindəki araşdırma, təhlil və tövsiyələrdən müasir şəraitdə yeni neft strategiyasının işlənilməsində, bu mövzuda növbəti araşdırmaların aparılmasında istifadə oluna bilər.

Tədqiqatın nəticələri – aparılan tədqiqatlar nəticəsində Azərbaycanın həyata keçirmiş olduğu neft strategiyasının ölkəmizin xarici ticarət mövqelərinin şaxələnməsinə, geoiqtisadi nüfuzunun artmasına şərait yaratdığı qənaətinə gəlinmişdir.

Tədqiqatın elmi yeniliyi – Azərbaycanın neft strategiyasının mahiyyəti və iqtisadi inkişafda rolu araşdırılmışdır.

Açar sözlər: neft strategiyası, iqtisadi risklər, investisiya, investisiya mühiti, xarici investisiya, iqtisadi inkişaf, həyat səviyyəsi, yaşayış minimumu, sosial-iqtisadi inkişaf.

Giriş

Müasir dövrdə ölkəmiz dünya birliklərinə inteqrasiyanın müvəffəqiyyətlə reallaşması, iqtisadi təhlükəsizliyin təmin olunması yönündə uğurlar qazanmışdır. Son illərdə Azərbaycan Respublikası borc alan bir ölkədən borc verən bir ölkəyə çevrilmişdir və bu proses qloballaşma dövründə kifayət qədər uğurla nəticələnməkdədir. Bunun əsas səbəbi Ulu öndər Heydər Əliyevin və onun davamçısı olan Cənab İlham Əliyevin həyata keçirdiyi yüksək iqtisadi-siyasi strategiyanın nəticəsidir. İqtisadiyyatın dinamik inkişafının təmin olunması ilk öncə inkişafın diversifikasiyasının reallaşdırılmasına zəruriyyət yaradır.

Müstəqilliyini yenidən qazanmış Azərbaycan, çətinliklərə baxmayaraq, sosial-iqtisadi inkişafın dinamik mərhələsinə daxil olaraq əhəmiyyətli nailiyyətlər əldə etmişdir. Bu dövrdə yeni siyasi və

iqtisadi strukturların yaradılması sürətli inkişafa şərait yaratmışdır. İqtisadiyyatın əsas sahələrində baş verən dəyişikliklər, satış bazarlarının tərkibinin dəyişməsi, istehsalın mərkəzləşdirilməsi, maliyyə ehtiyatlarının düzgün idarə edilməsi və bölüşdürülməsi mexanizmlərinin formalaşması, eləcə də qiymətlərin sərbəstləşdirilməsi kimi islahatlar sənaye sektorunun daha rəqabətli və effektiv inkişafına imkan vermişdir. Nəticədə, sənaye sektoru bazar münasibətləri əsasında daha dinamik və inkişaf etmiş bir vəziyyət almışdır. “Postsovet ölkələrində yaşıl iqtisadi artım göstəriciləri ilə investisiya xərcləri arasında statistik əhəmiyyətli əlaqənin olmaması dövlət idarəçiliyindəki əsas sistem problemləri və strateji investorların bu ölkələrə investisiya qoymasına ciddi maneə törədən fiskal, pul və investisiya siyasətindəki çatışmazlıqlarla bağlıdır. Kapital itkisi və ya ilkin investisiyanın dəyərinin azalması riskinin yüksək olması səbəbindən, investorların yaşıl iqtisadiyyatın artım göstəricilərini təmin etmək üçün bu investisiya kəmərindən istifadə etməsi mümkün deyildir. Əksinə, yuxarıda qeyd olunan maneələri nəzərə alaraq, institusional transformasiya təkcə tez əlavə mənfəət əldə etməkdə deyil, həm də alıcı ölkədə yaşıl iqtisadi artımı təşviq etməkdə maraqlı olan investorlardan ölkəyə yüksək keyfiyyətli kapital axınına səbəb ola bilər” [1].

Azərbaycan Respublikasının qarşısında duran strateji vəzifələrdən biri məhsuldarlıq və səmərəliliyi artıraraq yüksək rəqabətqabiliyyətli, ixracyönümlü iqtisadiyyata keçidi sürətləndirməkdir. “Bu gün konkret əraziyə və ya regiona investisiya qoymaq ölkəmizin qarşısında duran aktual məsələlərdən biridir. Müvafiq investisiya obyektlərinin yaradılması investisiya mühitinin yaxşılaşdırılması deməkdir. Onun üslubu diqqəti daha çox cəlb edir.İnvestisiya mühiti də istənilən ölkədə və ya regionda infrastrukturun keyfiyyətinə təsir göstərir. İnvestisiya səviyyəsini və investisiya qoyuluşu zamanı mümkün risk səviyyəsini müəyyən edən siyasətlər sosial, maliyyə, iqtisadi və hüquqi şərtlər toplusu kimi qəbul edilir və qiymətləndirilir” [2, səh. 22].

Azərbaycanın iqtisadi və siyasi həyatında enerji sektorunun rolu

XX əsrin sonlarında neft hasilatı ilə irəliləyiş, eyni zamanda iqtisadiyyatın digər sahələrinin inkişafına da təsir göstərmişdir. Bakıda neftin işləndiyi və hasilatının aparıldığı sənaye sektorunun durumu bir çox digər sənaye sahələrinin gələcək inkişafında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə neft sənayesinin, texnika və avtomobil, eləcə də kimya sənayesinin də əhəmiyyətli dərəcədə inkişaf etdiyi müşahidə olunur. Bu proses Azərbaycanın iqtisadi sisteminin dəyişməsi və müasir sənaye infrastrukturunun formalaşmasında müstəsna rol oynamışdır.

Zaqafqaziyada yerləşən fabrik və zavodlar, istehsal olunan sənaye məhsullarının əksəriyyətinin Azərbaycan tərəfinə aid olmasına görə, bu bölgənin sənaye potensialını nümayiş etdirirdi. O dövr ərzində Azərbaycan Rusiya imperiyasında mühüm bir sənaye mərkəzi olaraq ön planda idi. Müxtəlif istehsal sahələrində, Rusiya imperiyasında istehsal olunan neftin 74,6%-ni, pambıq lifinin 10%-ni, balığın 9%-ni, xam ipin 8%-ni və elektrik enerjisinin 6%-ni Azərbaycan istehsal edirdi. Bu faktlar Azərbaycanın sənaye sahəsindəki gücünü və əhəmiyyətini açıq şəkildə ortaya qoyurdu.

XX əsrin ilk onilliyində Azərbaycanın istehsal müəssisələri Rusiya imperiyası üzrə ümumi fabrik-zavod məhsullarının 5%-ni təşkil edirdi. Bu müəssisələrdə çalışan işçilər isə ölkə əhalisinin 8%-ni əhatə edirdi. Azərbaycanın sənaye sektoru, ərazisinin və əhalisinin kiçik olmasına baxmayaraq, qeyri-adi bir inkişaf tempini nümayiş etdirirdi. Xüsusilə, Bakıdakı neft sənayesinin inkişafı milli burjuaziyanın formalaşmasına və kapitalist münasibətlərinin genişlənməsinə təkan vermişdir. Azərbaycanın iqtisadi və siyasi həyatında enerji sektorunun rolu tədricən daha da artır. Son dövrlərdə bu sahənin inkişafı ilə əldə olunan iqtisadi nailiyyətlər, beynəlxalq neft şirkətlərinin ölkəyə cəlb olunması və neft hasilatının yüksəlməsi ilə sıx bağlıdır. Bu proses zəngin enerji resurslarının daha effektiv istifadəsini təmin edir və xarici investisiyaların axınına şərait yaradır. Neft sektorunun genişlənməsi ölkənin iqtisadiyyatının daha da çoxşaxəli olmasına, gəlirlərin artmasına və iqtisadi inkişafın sürətlənməsinə imkan tanıyır. Nəticədə, Azərbaycanın enerji sahəsindəki strateji mövqeyi güclənir və beynəlxalq miqyasda daha təsirli bir aktora çevrilir. Neft və qaz istehsalındakı irəliləyişlər, müasir standartlara uyğun olaraq, sosial-iqtisadi rifahın artmasına və müdafiə qabiliyyətinin gücləndirilməsinə kömək edir. Bu sahənin inkişafı yeni iş imkanlarının yaradılması, texnoloji yeniliklərin tətbiqi, infrastrukturun modernləşdirilməsi və istehsalatın

artırılması ilə birləşir. Eyni zamanda, yüksək texnologiyalı neft-qaz sektoru ixtisaslaşmış iş qüvvəsinin yetişdirilməsini tələb edir, buna görə də təhsil və peşə hazırlığına sərmayələrin artırılması xüsusi önəm daşıyır.

Neft-qaz sektorunun inkişafı ölkədə iqtisadi artımın təşviqinə və sosial proqramların maliyyələşdirilməsinə yardım edir. Bu, əhalinin həyat səviyyəsinin yüksəlməsinə və sosial xidmətlərin, əsas infrastrukturun təminatına daha geniş imkanlar açır. Bununla yanaşı, neft-qaz sektorunun genişlənməsi ölkənin müdafiə gücünün artırılmasına da dəstək verir. Neft və qaz sənayesindən əldə olunan gəlirlərin artması müasir hərbi sistemlərin inkişafına, müdafiə sektorunun gücləndirilməsinə və strateji təhlükələrdən qorunmaq üçün daha yüksək təhlükəsizlik tədbirlərinə sərmayə qoymağa imkan tanıyır [3, səh.43-44].

“Bakı-Tbilisi-Ceyhan” neft kəməri dünya miqyasında misilsiz bir mühəndislik nümunəsidir. Uzunluğu 1762 kilometr olan boru kəmərinin 443 kilometri Azərbaycandan, 249 kilometri Gürcüstandan və 1070 kilometri Türkiyədən keçərək fəaliyyət göstərir. “Bakı-Tbilisi-Ceyhan” nəqliyyat vasitəsi Şərq-Qərb enerji dəhlizinin ən mühüm komponentlərindən biridir. Bu boru kəməri dünya iqtisadiyyatının əhəmiyyətli bir hissəsi olaraq, tranzit ölkələrinin iqtisadi inkişafını və enerji təhlükəsizliyini təmin etməkdə əsas rola malikdir.

Azərbaycan iqtisadiyyatında neft sektoruna investisiya layihələrinin ilkin mərhələsi

Azərbaycan iqtisadiyyatında neft sektoruna investisiya layihələrinin icrasının əsası “Hasilatın Pay Bölgüsü Sazişi” olmuşdur. Bu saziş, ölkəmizin neft strategiyasının əsasını təşkil edir. Bu strategiyanın reallaşması ilə ölkə iqtisadiyyatında mühüm transformasiya və inkişaf baş vermişdir. Neft sənayesinin yaradılması və inkişafı yeni problemlərin həllinə imkan verərək, mövcud infrastrukturun müasirləşməsinə və yeni layihələrin həyata keçirilməsinə səbəb olmuşdur. Nəticədə yeni iş yerləri yaranmış və qeyri-neft sektorunun inkişaf sürəti artmışdır. Sazişin digər bir nəticəsi isə Azərbaycan ilə digər dövlətlər arasında iqtisadi əlaqələrin genişlənməsidir. Ölkəmizdə baş verən genişmiqyaslı islahatlar cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Bu islahatlar investisiya mühitinin yaxşılaşdırılması və dövlət idarəçiliyinin yenidən qurulmasını özündə birləşdirir. Azərbaycan neftinin dünya bazarına çıxarılması prosesində Bakı-Novorossiysk, Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa marşrutları mühüm əhəmiyyət kəsb edir. Bu diversifikasiya Azərbaycan neftinin Avropa bazarına çatdırılmasını təmin edir. Bu bir daha göstərir ki, həmin dövrdə ölkədə investisiya prosesi həm makrosəviyyədə, həm də mikrosəviyyədə həyata keçirilirdi. “İnvestisiya prosesində makro və mikrosəviyyədə iş strategiyaları maliyyə qərarları qəbul edərkən investorların prioritetlərinə və investisiya sürətinə təsir edir. Onun həyata keçirilməsinin mümkünlüyü üçün müəyyən şərtlərin mövcudluğu vacibdir: 1) Təklif olunan makro investisiya mühiti. O, investisiya qoyuluşunu və müəyyənləşdirilməsini təmin edir. İnvestisiyaların siyasi, iqtisadi və sosial sferada göstəriciləri. 2) Mikrosəviyyədə investisiya mühiti, müxtəlif investisiya obyektlərinin seçilməsinə, kəmiyyətinə və fəaliyyətinə, o cümlədən cəmiyyətə, siyasətə, iqtisadiyyata, qanunvericiliyə, məsələn, xammal, istehsal, ətraf mühitə və s.” [2].

Bu layihələrin icrası nəticəsində ölkəmizdə infrastruktur sahəsində mühüm irəliləyişlər əldə edilmiş, boru kəmərlərinin yerləşdiyi bölgələrdə yeni iş imkanları təqdim olunmuşdur. 1999-cu ildə “Şahdəniz” qaz-kondensat yatağının kəşfi genişləndirilmiş neft strategiyasının daha da irəliləməsini təmin etmişdir. Hal-hazırda Azərbaycan 2,5 trilyon kubmetr dərəcəsində təbii qaz ehtiyatına malikdir. 2007-ci ildən başlayaraq Xəzər dənizindəki “Şahdəniz” yatağından çıxarılan təbii qaz Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsilə nəql olunur. TANAP kəməri qazı Türkiyənin şərqindən qərbinə daşıyaraq Avropanın enerji təhlükəsizliyini artıracaq. TANAP və TAP layihələrinin həyata keçirilməsi onların keçdiyi ölkələrdə yeni iş yerlərinin yaradılmasına və sosial-iqtisadi inkişafın dəstəklənməsinə imkan tanıyacaq.

Azərbaycanın neft-qazçıxarma sənayesinin gələcək inkişafı

Neft gəlirlərinin səmərəli istifadəsi neft hasil edən ölkələrin əsas vəzifələrindən biridir. Bu, potensial maliyyə təhlükələrinin aradan qaldırılması, iqtisadi artımın təmin edilməsi və stimullaşdırılması üçün ən effektiv vasitələrdən biri kimi qəbul edilir. Bərpa olunmayan ehtiyatlar fondları

bu məqsədə nail olmaq üçün istifadə edilən əsas vasitələrdən biridir. Bu fondların sayı hazırda 30-dan çoxdur və onlar 1970-ci illərdə yaradılmağa başlanmışdır ki, onların arasında aparıcı yer neft fondlarına aiddir. Bu fondların məqsədi iqtisadiyyatın xammaldan asılılığını azaltmaq, inflyasiya təzyiqini yüngülləşdirmək və gəlirlərə qənaət etməkdir.

Neft fondlarının yaradılması və istifadəsinin bir neçə yolu var:

- dəyişən xarici iqtisadi şəraitdə cari büdcə balansını təmin etmək üçün sabitləşdirmə fondları;
- uzunmüddətli perspektivə yönəlmiş gələcək nəsillərin yığım fondları;
- təbii resurs rentasının yığılması və əhali arasında bölüşdürülməsi.

Dünya təcrübəsi göstərir ki, neft fondları iki və ya üç qeyd olunmuş funksiyanın yerinə yetirilməsi ilə xarakterizə olunur. Ancaq belə bir fondun yaradılması iqtisadiyyatın üzləşdiyi problemlərin həllinə zəmanət vermir. Əsas öhdəlik, onun resurslarından effektiv istifadə etməkdir. Azərbaycan, hələ böyük neft gəlirləri əldə etməmişdən əvvəl, neft ixracından gələn gəlirlərin iqtisadiyyata təsirini minimuma endirmək məqsədilə hazırlıq işlərinə başlamışdı. Eyni zamanda, neft strategiyasının əsas məqsədlərindən biri qeyri-neft sektorunun inkişafı və indiki və gələcək nəsillərin sosial rifahının təmin edilməsidir. Bu məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edilmişdir.

Növbəti mərhələdə neft strategiyası neft yataqlarının birgə işlənməsindən və onların səmərəli istifadəsindən ölkənin neft gəlirlərinin toplanmasına, bu vəsaitlərin qabaqcıl sahələrin inkişafına yönəldilməsinə və xüsusi sosial və iqtisadi əhəmiyyətə malik layihələrin həyata keçirilməsinə yönəlmişdir. Azərbaycan Respublikasında yaradılmış Neft Fondu 2001-ci ildən fəaliyyətə başlamışdır. Onun əsas məqsədləri:

- ölkədə makroiqtisadi sabitliyi qorumaq, maliyyə və vergi intizamını təmin etmək;
- ölkənin sosial-iqtisadi inkişafına yönəlmiş ən mühüm milli layihələri maliyyələşdirmək;
- neft-qazın bərpa olunmayan təbii sərvətlər olduğunu nəzərə alaraq, neft-qaz ehtiyatlarından əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsini və gələcək nəsillər üçün vəsaitlərin yığılmasını təmin etmək.

Cədvəl 1.

ARDNF vəsaitlərinin artım dinamikası mlrd. dollar

	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
ARDNF- nin aktivləri	33,5	33,147	35,8	38,515	43,323	43,223	42,761	49,33	55,523
Artım / azalma	-9,5%	-1,1%	+5,88%	+8,2%	+12,5%	-0,2%	-2,3%	+15,3%	+11,5%

Mənbə:*https://azertag.az/ru/xeber/za_tri_mesyaca_dohody_neftyanogo_fonda_sostavili_31_mlrd_manatov_rashody_sostavili_25_mlrd_manatov-1772023, https://az.sputniknews.ru/20200606/gosudarstvennyj-neftjanoj%20-fond-postuplenie-nefti-gaza-%20424128478.html materialları əsasında tərtib olunub.*

ARDNF-nin gəlirləri müxtəlif mənbələrdən əldə edilir. Əsas hissəsi Azərbaycanın karbohidrogenlərinin satışından gəlir. Bundan əlavə, bonus ödənişləri, hər akr üzrə ödənişlər, layihələrdən gələn dividendlər, tranzit haqları və digər investor ödənişlərindən ibarət olur. 2015-2023-cü illər arasında Dövlət Neft Fondunun aktivləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. 2023-cü ilin yanvar-sentyabr aylarında ARDNF-nin aktivləri 13,2% artaraq, 2023-cü ilin oktyabrında 55,524 milyard ABŞ dollarına çatmışdır. Hesabat dövründə ARDNF-nin aktivləri 12 milyard 227,2 milyon manat təşkil etmişdir. Bu gəlirlər, neft-qaz müqavilələri hesabına əldə olunan gəlirlər, gəlirli neft-qazın satışından gələn qazanc, bonus ödənişləri, layihələrdə iştirak üçün ödənişlər, tranzit gəlirləri və aktivlərin idarə olunmasından əldə edilən gəlirlərdən ibarətdir. Eyni zamanda, 2023-cü il dövlət büdcəsinin icrası çərçivəsində 3 milyard 550 milyon manat məbləğində transfertlər həyata keçirilmişdir.

Dövlət Neft Fondunun ilkin xərcləri, əsasən, dövlət büdcəsinə edilən transfertlər vasitəsilə təmin edilir. Eynilə, bu vəsaitlər ölkənin sosial-iqtisadi inkişafını dəstəkləmək məqsədilə iri

infrastruktur layihələrinin və milli strateji təşəbbüslərin maliyyələşdirilməsinə yönəldilir. Bir neçə ölkə, zəngin təbii sərvətlərə, xüsusən də neftə sahib olmasına baxmayaraq, uzunmüddətli iqtisadi artımı və vətəndaşların yüksək həyat səviyyəsini təmin etməkdə çətinliklər yaşayır. Bu fenomen isə “resursların lənəti” kimi tanınır. Resursların bolluğu onların çıxarılmasından əldə edilən gəlirin düzgün idarə edilməməsi və sui-istifadə ilə əlaqədardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılan Dövlət Neft Fondu, neftdən əldə olunan gəlirlərin səmərəli toplanması və istifadə edilməsini təmin edir. Fondun valyuta vəsaitlərinin yatırılması və idarə olunması prezidentin fərmanlarına əsaslanır. Fondun investisiya siyasəti isə təsdiq olunmuş qaydalara uyğun olaraq icra edilir. Valyuta vəsaitlərinin bu prinsiplərə uyğun idarəsi sərmayələrin effektiv şəkildə idarə edilməsini, onların qorunmasını və dayanıqlı artımını hədəfləyir.

27 dekabr 2015-ci il tarixli prezident fərmanı ilə Dövlət Neft Fondunun maliyyə vəsaitlərindən istifadə olunması üçün müəyyən istiqamətlər müəyyənləşdirilib. Bu istiqamətlər arasında sosial-iqtisadi məsələlər, məcburi köçkünlərin yerdəyişməsi, dövlət büdcəsinə vəsait ayrılması, Samur-Abşeron suvarma sisteminin bərpası, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, Azərbaycanın gənclərinin xaricdə təhsili və Cənub Qaz Dəhlizi layihəsində iştirakın maliyyələşdirilməsi mövcuddur. Dövlət Neft Fondu strateji əhəmiyyətli sosial-iqtisadi layihələrin həyata keçirilməsində və perspektivli sahələrin inkişafında mühüm rol oynayır. Fondun maliyyələşdirdiyi layihələr infrastruktur, təhsil, səhiyyə, nəqliyyat, qeyri-neft sektoru və regional inkişaf kimi müxtəlif sahələri əhatə edir. 2007-2015-ci illər arasında Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili məqsədilə həyata keçirilən Dövlət Proqramı müasir tələblərə uyğun ixtisaslı mütəxəssislərin yetişdirilməsinə təsir göstərmişdir. Proqram çərçivəsində 3283 nəfərin təhsili Neft Fondu vəsaiti hesabına maliyyələşdirilmişdir. Bu təşəbbüs Azərbaycanın təhsil səviyyəsinin yüksəldilməsinə və beynəlxalq təcrübənin artırılmasına əhəmiyyətli dərəcədə töhfə vermişdir.

Sivilizasiyanın müasir mərhələsində ekoloji prioritetlər bütün sahələrə nüfuz etməkdədir. Böyük ərazi tutumlu şirkətdə də bu istiqamətdə genişmiqyaslı işlər aparılır, istiqamətləndirici və icraçı strukturlar yaradılır. Ekoloji strukturlar pul formasında mənfəət əldə edilməsinə hesablanmasa da, onların ümumi sistem üzrə faydalılığı mühümdür. Ona görə də, ekoloji durumun yaxşılaşdırılması istiqamətində beynəlxalq standartlar və qüvvədə olan normalara cavab verən ekoloji işlərin, kompleks tədbirlərin həyata keçirilməsi, neft-qaz hasilatı və emalı prosesində ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya çıxan problemlərin həlli, müəssisələrin fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsi və digər problemlərin aradan qaldırılması məqsədilə ölkə prezidentinin “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında” 14 sentyabr 2006-cı il tarixli Fərmanına uyğun olaraq şirkətin nəzdində Ekologiya İdarəsi yaradılmışdır. Azərbaycan Prezidentinin 22 dekabr 2005-ci il tarixli Sərəncamı ilə SOCAR-ın tərkibində Sosial İnkişaf İdarəsi yaradılmışdır. Bu idarə neftçilərin sosial tələbatlarının ödənilməsini, maddi-texniki bazanın gücləndirilməsini və neftçilərin istirahət şəraitinin yaxşılaşdırılmasını təmin edir. Ayrıca, neft sızmalarının aradan qaldırılması, lay sularının idarə olunması və tullantıların təmizlənməsi sahəsində mühüm tədbirlər görülmüşdür. Azərbaycanda işsizlik səviyyəsi əhalinin həyat səviyyəsinin əhəmiyyətli göstəricilərindən biridir. Ölkədə məşğul əhalinin sayında artım işsizlik səviyyəsinin azalmasına səbəb olmuşdur. Azərbaycanın BMT-nin İnkişaf Proqramında “orta insan inkişafı” qrupundan “yüksək insan inkişafı” qrupuna keçməsi bu sahədəki uğurların bir göstəricisidir. Bu irəliləyişlər ölkənin sosial və iqtisadi rifahının yüksəlməsinə imkan tanımışdır.

Azərbaycanın neft-qazçıxarma sənayesinin gələcək inkişafı ölkə iqtisadiyyatının dünya təsərrüfatına daha da inteqrasiya olunmasına, müstəqilliyin, suverenliyin, dövlətçiliyin və milli təhlükəsizliyin güclənməsinə təsir edəcəkdir. Bu proses investisiya axınının genişlənməsinə və beynəlxalq arenada Azərbaycanın gücünün artmasına gətirib çıxaracaq. Eyni zamanda, bu addımlar iqtisadiyyatın müxtəlifləşdirilməsinə və digər sektorlara dəstək verəcək, Azərbaycanın enerji sahəsindəki liderliyini daha da möhkəmləndirəcək və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artıracaqdır.

Nəticə

Məqalədə bazar münasibətləri şəraitində Azərbaycanın iqtisadi və siyasi həyatında yanacaq-enerji kompleksi sahəsinin çox mühüm əhəmiyyət kəsb etməsini bir daha faklarla əsaslandırıldı. Bu sahənin inkişafı ilə əlaqədar olaraq ölkəmizdə son illərdə çox böyük iqtisadi nəticələrin əldə olunduğu vurğulandı. Bu iqtisadi göstəricilərin belə yüksək səviyyəyə qaldırılmasının hər şeydən əvvəl ölkəmizdə xarici neft şirkətlərinin iştirakına əsaslanaraq neft hasilatının artırılması ilə bilavasitə bağlılığı qənaətinə gəlindi.

Azərbaycanda neft-qazçıxarma sənaye sahəsinin bazar münasibətlərinin müasir tələbləri səviyyəsinə uyğun olaraq inkişafı ölkə əhalisinin sosial-iqtisadi rifahının yaxşılaşdırılmasına və ölkəmizdə müdafiə qüdrətinin möhkəmləndirilməsinə xidmət edir və gələcəkdə də xidmət edəcəkdir.

Son illərin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatı şəraitində ölkəmizdə neft-qazçıxarma sənayesinin daha da inkişaf etdirilməsi nəticəsində Azərbaycanın dünya iqtisadı sisteminə inteqrasiyasının güclənməsi ilə yanaşı beynəlxalq imici də artmağa başlamışdır.

Neft sivilizasiyasının təşəkküləndən bəri neft-qaz resursları potensialı dünya siyasətində başlıca strateji hərbi və diplomatik qüvvə, siyasi-iqtisadi strategiyanın formalaşması mənbəyi, milli gücün mühüm faktoru hesab edilməkdədir. Neft və qaz müasir zamanda zəruri istehsal, iqtisadi-maliyyə resursu olmaqla sənaye potensialının əsas energetik komponentidir. Sosial gücü, şəhəryaratma və aqlomerasiya effekti mühüm olan bu resursa istinadən bəşər cəmiyyəti ayrılıqda və həmçinin iqtisadiyyatın bütün sahələrində özünü lazımi enerji və nəqliyyat xidməti ilə təmin etmiş olur.

Neft-qaz sektorunun inkişafı gəlirin artmasına və sosial proqramların maliyyələşdirilməsinə kömək edir, əhalinin yaşam standartlarının yaxşılaşdırılmasına və sosial təminatın yüksəlməsinə imkan yaradır. Eyni zamanda, bu sektor müdafiə qüdrətinin güclənməsinə, müasir silah və hərbi təchizat sistemlərinin təkmilləşdirilməsinə imkan verir. Neft hasilatının illik artım templəri və dünya bazarındakı neft qiymətlərinin təhlili göstərir ki, son üç il ərzində hasil olunan neftin istehsal xərclərinə təsiri minimaldır. Ancaq, neftin dünya qiymətləri Ümumi Daxili Məhsul (ÜDM), investisiya fəaliyyəti, dövlət gəlirləri və iqtisadiyyatın diversifikasiyası kimi əsas makroiqtisadi göstəricilər üzərində əhəmiyyətli təsirə malikdir. Bu baxımdan, neftin qiyməti ölkənin iqtisadi inkişafını müəyyən edən ən əsas xarici amil kimi görülə bilər.

ƏDƏBİYYAT

1. B.Ataşov, E. Məmmədova, E. İbrahimov (2023). Postsovet ölkələrində yaşıl iqtisadi inkişafın təşviqi: birbaşa xarici və portfel investisiyalarının rolu. İdarəetmədə problemlər və perspektivlər, 21(4), 288-303. doi:10.21511/ppm. 21(4).2023.17
2. E.B.Məmmədova. “Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemləri” mövzusunda doktorluq dissertasiyası, 5308.01 – “Ümumi iqtisadiyyat” ixtisası üzrə, səh. 22-30
3. E.B.Məmmədova. Azərbaycanda investisiya mühiti və onun yaxşılaşdırılması istiqamətləri. Monoqrafiya. “Kooperasiya” nəşriyyatı, Bakı-2024.424 s.
4. Мамедова, Э.Б. Историческая важность повышения эффективности инвестиционной среды в Азербайджане // “Вопросы истории”. Москва. 2021, №9 (2). – с. 148–155.
5. Мамедова, Э.Б. Актуальность совершенствования государственной инвестиционной политики Азербайджана в постпандемическом периоде / Сборник материалов IV Международной Научно–Практической Конференции “Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе” (шифр–МКПЦР), г. Москва, 24 сентября 2021 года. 24.09.2021. –с. 110–118.
6. https://www.economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya-muhiti-haq inda/21336
7. http://elibrary.az/docs/j urnal/jrn2017 584.pdf
8. http://kaspi.az/az/investisiya-muhitinin-daha-da-yaksilasdirilmasi/

9. http://www.taxes.gov.az/uploads/neshrler/vergiveinv.pdf
10. http://www.azerbaij ans.com/content 1614 az.html

Эльнура Бунят кызы Мамедова
Азербайджанский Университет Кооперации

Самира Яшар кызы Мамедова
Азербайджанский Университет Кооперации

Оценка влияния нефтяной стратегии на уровень жизни населения

Резюме

Цель исследования - Основная цель и основные принципы стратегии в статье заключаются в том, чтобы внести различные предложения по более эффективному использованию богатых природных ресурсов Азербайджана, включая ресурсы нефти и газа, на благо народа Азербайджана, и проанализировать влияние нефтяной стратегии на показатели инвестиционной среды страны**.**

Методика исследования - составляют научные статьи по вопросам управления нефтегазовыми интересами отечественных и зарубежных экономистов, опыт стран-экспортеров нефти в этой области, мнения азербайджанских экономистов и другие.

Прикладное значение исследования – проведенные исследования, анализ и рекомендации в работе могут быть использованы при разработке новой нефтяной стратегии в современных условиях, а также при проведении дальнейших исследований по данной теме.

Результаты исследования - В результате проведенных исследований был сделан вывод, что реализуемая Азербайджаном нефтяная стратегия создала условия для диверсификации внешнеторговых позиций нашей страны и повышения геоэкономического влияния нашей страны.

Научная новизна исследования - исследована сущность нефтяной стратегии Азербайджана и ее роль в экономическом развитии.

Ключевые слова: нефтяная стратегия, экономические риски, инвестиции, инвестиционная среда, иностранные инвестиции, экономическое развитие, уровень жизни, прожиточный минимум, социально-экономическое развитие.

Elnura Bunyat Mammadova
Azerbaijan Cooperation University

Samira Yashar Mammadova
Azerbaijan Cooperation University

Assessment of the impact of the oil strategy on the standard of living of the population

Summary

The purpose of the study is - The main purpose and main principles of the strategy in the article are to make various proposals for the more efficient use of Azerbaijan's rich natural resources, including oil and gas resources, for the welfare of the people of Azerbaijan, and to analyze the impact of the oil strategy on the indicators of the country's investment environment.

Methodology of the research - consists of scientific articles on the control of oil and gas interests of domestic and foreign economists, experiences of oil exporting countries in this field, opinions of Azerbaijani economists and others.

Applied importance of the research - the research, analysis and recommendations in the work

can be used in the development of a new oil strategy in modern conditions, and in conducting further research on this topic.

Results of the study - As a result of the conducted studies, it was concluded that the oil strategy implemented by Azerbaijan created conditions for the diversification of foreign trade positions of our country and the increase of geo-economic influence of our country.

The scientific novelty of the study - the essence of Azerbaijan's oil strategy and its role in economic development were investigated.

Key words: oil strategy, economic risks, investment, investment environment, foreign investment, economic development, standard of living, subsistence minimum, socio-economic development.